

Əminə YUSİFQIZI,
*Respublikanın əməkdar jurnalisti*

# 20 yaşlı aslanım, igidim orda uyuyur!

**Sən sağ olasan Vətən! Daha bir gənc sənin müqəddəsliyin uğrunda gözünü qırpmadan canını fəda etdi. Ata cənazənin yanında donub qalmışdı, övladını öz əlləri ilə torpağa tapşırır. Böyük arzularla böyütdüyü oğluna nə ümidlər bəsləmişdi. İndi isə Bəxtiyar kişi elə bir məqama çatmışdı ki, bir tərəfdən düşmən tapdağından qurtulmaqda olan torpaqların gözünə hopmuş alovu, bir tərəfdən isə vətən üçün itirdiyi yeganə oğlunun ürəyini parçalayan ağrı-acısı. Di buna döz, ata ürəyi. Şip-şirin balasını torpağa tapşıran, heç bir təsəlli ilə ovunmayan Şəkər xanım vətən uğrunda həyatını itirən, ancaq ölməyən boy-buxunlu gözəl balasını görmək istəyir, çəkdiyi hayqırtı tək özünün ürəyini deyil, şəhidi torpağa əmanət edənlərin hamısının ürəyini parçalayırdı.**

İsmayılzadə Əsgər Bəxtiyar oğlu 22 yanvar 2000-ci ildə Yevlax rayonunun Gülövşə kəndində anadan olmuşdu. Son mənzilə atasının çiynində getdi. Nə yazıq ki, müharibənin qanunları budur. Oğullar ataların çiynində gedir.

Yevlaxın Gülövşə kənd məktəbinin tərbiyəvi işlər üzrə müavini Röyal Məmmədxanov redaksiyamıza gəlmişdi: "Doğrudan da tanrı yaxşıları sevib öz dərgahına aparır. Lənət olası düşmən vətənini canından çox sevən bir gəncin arzularını ürəyində qoydu. Ona 5 il riyaziyyat fənnindən dərs demişəm. İstəyirdim riyaziyyatın sirlərinə dərindən bələd olsun. İndi anlayıram ki, mənim ona öyrətdiyim dərs deyilmiş. Əsl dərsi o öyrətdi, tarixə və düşmənə". Gözəl ənənələri ilə seçilən, təlim-tərbiyə işlərində fərqlənən bu təhsil ocağının gənc müəlliminin gözlərində nə qədər kədər var idi. Elə yana-yana danışırdı ki... Hansımız yanmırıq ki, hər şəhid olan gənc bizim də balamız deyilmi?!

İsmayılzadə Əsgər Bəxtiyar oğlu 2005-ci ildə Yevlax rayonu V.Mövsümov adına Gülövşə kənd tam orta məktəbinin 1-ci sinfinə gedir. Əsgər orta məktəbdə sakit təbiəti, çalışqanlığı və tərbiyəsi ilə seçilən, utancaq uşaq idi. İdmanla məşğul olurdu. 2014-cu ildə həmin məktəbin 9-cu sinfini bitirərək, Mingəçevir Turizm kollecinin "Nəqliyyatda daşımaların təşkili" fakültəsinə daxil olur və 2019-cu ildə kolleci bitirdikdən sonra vətənə olan borcunu yerinə yetirmək üçün hərbi xidmətə gedir. Xidmətini Cəlilabad rayonunda öz arzusu ilə Xüsusi təyinatlı qüvvələrdə (XTQ) davam etdirir. Xidmətini bitirməyə 3 ay qalmış, 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinin ilk günündən XTQ olaraq ön cəbhəyə yollanıb. Murov yüksəkliklərinin alınmasında və Füzuli istiqamətində gedən döyüşlərdə fədakarlıq göstərib. Cəbrayıl rayonunun Xındıqlar yaşayış məntəqəsinin ətrafında "Qüllə" adlanan ərazidə düşməni mövqelərini tərk etməyə məcbur etmiş və 5 hərbi qulluqçusunu öldürmüşdür. Düşmənin Qışlaq yaşayış məntəqəsinin ətrafında yerləşən "Qızıl qaya" yüksəkliyindəki mövqelərindən qovulub çıxarılmasında fədakarlıqla vuruşmuşdu.

Əsgər 3 oktyabr 2020-ci il tarixində Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış və oktyabrın 4-də Yevlax rayon Gülövşə kənd qəbristanlığında dəfn edilmişdir. Kənd camaatı, rayonun bütün rəsmiləri, qohum-əqraba onu son mənzilə yola salmağa gəlmişdi. Hər kəs sanki öz balasını dəfn edirdi. Bir kasıb evdən çıxıb bir elin, bir vətənin oğlu adını qanilə qazandı Əsgər. Atasının zəhmətlə qazandığı çörəyin əvəzini bir oğul kimi atasına deyil, vətəninə qaytardı. Heç nədən çəkinmədi, küncdə-bucaqda gizlənmədi, özünü oda-alova atdı. Təki Vətən düşmən tapdağından xilas olsun - dedi. Uşağa ad qoyularkən hər kəs "adına layiq övlad olsun, adı ilə böyüsün" deyir. Əsgər də adı ilə böyüdü və adına layiq olduğunu sübut edərək, vətənin əbədi əsgəri oldu.

Əsgər sadə kəndli ailəsində böyüyüb. Atası Bəxtiyar, anası Şəkər xanım çox zəhmətkeş, həm tə çox kubar insanlardı. Sadə kənd həyatı yaşayırlar, amma qəlbləri, düşüncələri, mənəvi dünyaları o qədər zəngindir ki, övladları da bu zəngin dəyərlərin yetirməsidir. Əsgərin oxuduğu məktəbin X sinfində təhsil alan bacısı Leyla da ağıllı, tərbiyəli, qardaşı ilə fəxr edən vətənpərvər övladdır.

Sənin haqqında qələmə aldığım bu yazıdan bir ildən çox zaman keçib, Əsgər. Doğulub böyüdüyün kəndin insanları səni çox sevirmiş. Bu körpə yaşında necə qazana bilmişdin bu qədər hörməti!? Gülövşə kəndində kiminlə söhbət etdimsə, kimi danışdırdımsa, "Belə oğul dünyaya az-az gəlir" dedi. Bu günlərdə qazandığın daha bir fəxri adla kəndinin, ailənin başını uca etdin. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olundun igid Əsgər.



Əsl azərbaycanlı xanımı, üzündən abırhəya, nur yağan Şəkər xanımı - ananı dinlədim: - Əsgərin şəhadətindən bir il keçib. Elə bilirəm oğlum dünən şəhid olub. Məndən ötrü bir il tez gəlib keçdi, dərdim zərrə qədər azalmadı, əksinə oğlumun yoxluğu getdikcə dərindən sarsıdır məni. Əsgər bizim sağ gözümüz, döyünən ürəyimiz, güvəndiyimiz Şahdağımız idi. Umudumuz, gələcəyimiz idi. Hamısı məhv oldu balamsız. Düzdür, o, tarix yazdı və ən uca zirvəyə ucaldı. Bunu bilirik, amma bu itgiylə barışmırıq və barışmayacağıq. Dayaqsız qalmışıq, tək oğul övladımız idi. Oğlumun şəhid olması Gülövşə kənd qəbristanlığını bizə ən əziz yer edib. Elə bilirəm ruhum ordadır. Axı, 20 yaşlı gənc qəhrəmanım,aslanım, igidim orda uyuyur. Bir ildir getdiyim yer yalnız bu qəbristanlıqdır. Oğlumuzun şəhidliyi heç vaxt xoşlamadığım qara rəngi mənə ömürlük libas etdi. Əsgərin şəhidlik zirvəsi məni Allaha daha yaxın etdi. Bir ildir gecələri çox sevirəm, oğlumu yuxuda görə bilmək səadətinə qovuşmaq istəyirəm gecələr. Buna baxmayaraq, kim mənə "oğlun ölüb" desə, deyərəm ki, oğlum ölməyib, yaşayır. Axı, şəhidlər ölmür. Övladımızla fəxr etmişik və edəcəyik də. Kəndimizin ən gediş-gəlişli yerində Əsgərin adına bulaq tikdiririk. Bu işdə, bu ağır günlərimizdə bizi heç vaxt tək qoymayan kənd camaatı da əlindən gələn köməyi edir. Sağ olsun, dövlətimizi. Qayğımıza qalır. Bir ana kimi şəhid olmuş balamdan danışmaq mənə çox çətindirsə, bir o qədər də qürurvericidir. Hərb sənətini çox sevirdi. Hərbi xidmətə gedəcəyi zaman günlərini, saatlarını sayırdı. Əsgər şəhid olandan sonra döyüş yoldaşları bizə gəldilər, onun haqqında çox danışdılar. Deyirdilər ki, müharibənin başlanmasına "axır ki, başladıq" deyə hamımızdan çox sevinirdi. Yeddi gün vuruşub balam, igidliklə, qəhrəmanlıqla. Amma bizi çox sevsə də, torpağı seçdi oğlum. Oktyabrın 1-də evimizə zəng etdi. Atası ilə, mənimlə, bacısı ilə danışdı. Və yalana nifrət edən Əsgər yəqin ki, ilk və son dəfə bizə yalan dedi. Müharibənin ən qaynar nöqtəsində ola-ola, hərbi hissədəyəm, heç nədən narahat olmayın dedi.




44 yaşım var. Əsgər ilk övladım idi. Həyatımızın xoş günləri Əsgərlə başladı, Əsgərlə bitdi. 4 oktyabr 2020-ci ildə sanki hər şey bitdi. İndi dua edirəm ki, oğluma vermədiyi ömrü qızım Leylaya versin..." Nöqtəsinə, vergülünə dəymədiyim Şəkər xanımın dediyi fikirlərə amin deyirəm. Əsgərdən gözlədiyin gözəl günləri qızından yaşayasan.

İsmayılzadə Əsgər Bəxtiyar oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur. Əsgərin uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!